# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 249** QƏRAR **Bakı şəhəri, 29 iyul 2023-cü il**

## "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 sentyabr tarixli 386 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 may tarixli 2135 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 sentyabr tarixli 386 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1914; 2023, № 1, maddə 145) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Birinci abzasda "9" rəqəmi "10 (on)" sözləri ilə əvəz edilsin.
2. "Kollegiyanın üzvləri:" bölməsindən "Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***